PERIOAZ
AZƏRBAYCAN
PARODONTOLOGİYA CƏMİYYƏTİ

# PARODONTOLOGİYA KURİKULUMU 2026

Parodont və peri-implant xəstəliklərinin diaqnostikası,
qeyri-cərrahi & cərrahi müalicəsi üzrə
**1 illik davamlı peşəkar inkişaf programı**

www.perio.az





Cavid Əhmədbəyli



Aslan Məmmədov



Rüstəm Ağazadə



Nərgiz Əliyeva



Hikmət Baxışov



Leyla Bəkirova



Rəsul Quliyev



Vəfa Xanməmmədova

# MÜHAZİRƏÇİLƏR

# SEMİNARLAR










# PARODONT XƏSTƏLİKLƏRİNİN DİAQNOSTİKASI VƏ QEYRİ-CƏRRAHİ MÜALİCƏSİ

**15 FEVRAL 2026**
**Bazar**

| | |
|---|---|
| 09:30 - 10:00 | **Azərbaycanda Parodontologiya Cəmiyyəti: Parodontologiyanın inkişafında əldə edilmiş nailiyyətlər və gələcək planlar** - Cavid Əhmədbəyli |
| 10:00 - 11:30 | **Parodont xəstəliklərinin diaqnostikası və müalicəsinin planlanması** - Rüstəm Ağazadə |
| 11:30 - 12:00 | **Çay Fasiləsi** |
| 12:00 - 13:00 | **Fərdi ağız boşluğunun gigiyenasında müasir yanaşmalar** - Leyla Bəkirova |
| 13:00 - 14:00 | **Nahar Fasiləsi** |
| 14:00 - 15:30 | **Parodont xəstəliklərinin qeyri-cərrahi müalicəsi** - Nərgiz Əliyeva |
| 15:30 - 16:00 | **Çay Fasiləsi** |
| 16:00 - 17:00 | **Ağız sağlamlığı, ürək-damar xəstəlikləri, şəkərli diabet və hamiləlik** - Vəfa Xanməmmədova |
| 17:00 - 18:00 | **Diş əti çəkilmələrinin diaqnostikası və müalicəsinin planlanması** - Hikmət Baxışov |

# PARODONT VƏ PERİ-İMPLANT XƏSTƏLİKLƏRİNİN DİAQNOSTİKASI VƏ CƏRRAHİ MÜALİCƏSİ

**12 APREL 2026 Bazar**

| | |
|---|---|
| 10:00 - 11:30 | **Rezektiv parodontoloji cərrahiyyə** - Rüstəm Ağazadə |
| 11:30 - 12:00 | **Çay Fasiləsi** |
| 12:00 - 13:30 | **Regenerativ parodontoloji cərrahiyyə** - Aslan Məmmədov |
| 13:30 - 14:30 | **Nahar Fasiləsi** |
| 14:30 - 15:30 | **Peri-implant xəstəliklərin diaqnostikası və profilaktikası** - Hikmət Baxışov |
| 15:30 - 16:00 | **Çay Fasiləsi** |
| 16:00 - 17:00 | **İmplant ətrafı yumşaq toxuma qüsurlarının diaqnostikası və müalicəsinin planlanması** - Rəsul Quliyev |
| 17:00 - 18:00 | **Peri-implant xəstəliklərin qeyri-cərrahi və cərrahi müalicəsi** - Cavid Əhmədbəyli |

# MASTER KLASLAR









# PARODONT VƏ PERİ-İMPLANT XƏSTƏLİKLƏRİN QEYRİ-CƏRRAHİ MÜALİCƏSİ

**17 MAY 2026 Bazar**

Qeyri-cərrahi parodontoloji müalicə əvvəlcədən müəyyən edilmiş mərhələli protokola uyğun aparılmalıdır. Müalicənin ilk addımı xəstənin fərdi ağız boşluğu gigiyenasını yerinə yetirməsi üçün motivasiya edilməsidir. İkinci addım isə parodontoloji zondlama, parodontoqrammanın doldurulması, supra və subgingival ərpin aradan qaldırılması proseslərini əhatə edir. Master-klassda qeyri-cərrahi parodontoloji müalicənin əsasları, xüsusi parodontoloji modellər üzərində Hu-Friedy markası parodontoloji zondun və Gracey kuretlərinin istifadəsi üzrə praktik təlim təqdim ediləcəkdir.



| | |
|---|---|
| 10:00 - 11:30 | **Nəzəri hissə** |
| 11:30 - 12:00 | **Çay Fasiləsi** |
| 12:00 - 13:00 | **Nəzəri hissə** |
| 13:00 - 14:00 | **Nahar Fasiləsi** |
| 14:00 - 16:00 | **Praktik mərhələ** |
| 16:00 - 16:30 | **Çay Fasiləsi** |
| 16:30 - 18:00 | **Praktik mərhələ** |



**NƏRGİZ ƏLİYEVA**
**Parodontoloq**

## MASTER KLASS

# DİŞLƏR & İMPLANTLAR ƏTRAFINDA REZEKTİV PARODONTOLOJİ CƏRRAHİYYƏ

**21 İYUN 2026 Bazar**

Parodontoloji rezektiv cərrahiyyə gündəlik klinik praktikada göstərişlərə uyğun olaraq həm parodontitin və peri-implantitin cərrahi müalicəsində, həm də mürəkkəb restorativ və ortopedik kliniki hallarda əvəzolunmaz rol oynayır. Parodontitin və peri-implantitin etioloji müalicəsindən sonra qalıq parodontal ciblərin aradan qaldırılması, müsbət sümük anatomiyasının əldə edilməsi, dərin kariyesli dişlərdə və ortopedik konstruksiyaların yenilənməsində, eləcə də “gummy smile” hallarının korreksiyası üçün diş tacının uzadılması əməliyyatı tələb olunur. Master-klassda bioloji modellər üzərində tikiş texnikaları və parodontoloji rezektiv cərrahiyyə üzrə təlim keçiriləcəkdir.



| | |
|---|---|
| 10:00 - 11:30 | **Nəzəri hissə** |
| 11:30 - 12:00 | **Çay Fasiləsi** |
| 12:00 - 13:00 | **Nəzəri hissə** |
| 13:00 - 14:00 | **Nahar Fasiləsi** |
| 14:00 - 16:00 | **Praktik mərhələ** |
| 16:00 - 16:30 | **Çay Fasiləsi** |
| 16:30 - 18:00 | **Praktik mərhələ** |



**RÜSTƏM AĞAZADƏ**
**Parodontoloq, PhD**

## MASTER KLASS

# DİŞLƏR & İMPLANTLAR ƏTRAFINDA YUMŞAQ TOXUMA QÜSURLARININ TUNELLƏMƏ İLƏ BƏRPASI

**6 SENTYABR 2026**
**Bazar**

Yumşaq toxuma qüsurları olan xəstələrdə estetik problemlərlə yanaşı dentin hiperhəssaslığı və kök səthində çürüklərin yaranması müşahidə oluna bilər. Bu qüsurların bərpasında tunelləmə üsulu atravmatik bir metod kimi uğurla tətbiq edilir. Master-klassda bioloji modellər üzərində tikiş texnikaları, tunelləmə metodunun və yumşaq toxuma qreftinin tətbiqi üzrə təlim keçiriləcəkdir.



| | |
|---|---|
| 10:00 - 11:30 | **Nəzəri hissə** |
| 11:30 - 12:00 | **Çay Fasiləsi** |
| 12:00 - 13:00 | **Nəzəri hissə** |
| 13:00 - 14:00 | **Nahar Fasiləsi** |
| 14:00 - 16:00 | **Praktik mərhələ** |
| 16:00 - 16:30 | **Çay Fasiləsi** |
| 16:30 - 18:00 | **Praktik mərhələ** |



## HİKMƏT BAXIŞOV
**Parodontoloq, PhD**

## MASTER KLASS

# DİŞLƏR VƏ İMPLANTLAR ƏTRAFINDA YUMŞAQ TOXUMA QÜSURLARININ TACA İSTİQAMƏTLƏNMİŞ DİLİM İLƏ BƏRPASI

**11 OKTYABR 2026 Bazar**

Yumşaq toxuma qüsurları kliniki olaraq yumşaq toxuma kənarının apikal istiqamətdə yerdəyişməsi nəticəsində diş kökü və ya implantın abatment səthinin ağız boşluğuna açılması ilə xarakterizə olunur.
Taca istiqamətlənmiş dilim bu qüsurların bərpasında estetik və uzunmüddətli nəticələr təmin edən müasir parodontoloji plastik cərrahiyyə üsuludur. Master-klassda bioloji modellər üzərində tikiş texnikaları, taca istiqamətlənmiş dilimin və yumşaq toxuma qreftinin tətbiqi üzrə təlim keçiriləcəkdir.



| | |
|---|---|
| 10:00 - 11:30 | **Nəzəri hissə** |
| 11:30 - 12:00 | **Çay Fasiləsi** |
| 12:00 - 13:00 | **Nəzəri hissə** |
| 13:00 - 14:00 | **Nahar Fasiləsi** |
| 14:00 - 16:00 | **Praktik mərhələ** |
| 16:00 - 16:30 | **Çay Fasiləsi** |
| 16:30 - 18:00 | **Praktik mərhələ** |



**CAVİD ƏHMƏDBƏYLİ**
**Uzman parodontoloq, PhD, Dosent**

## MASTER KLASS

# DİŞLƏR & İMPLANTLAR ƏTRAFINDA REGENERATİV PARODONTOLOJİ CƏRRAHİYYƏ

**15 NOYABR 2026 Bazar**

Regenerativ cərrahiyyə zamanı dişlər və implantlar ətrafında yaranmış sümük qüsurlarının formasına uyğun olaraq sümük qreftləri, toxuma regenerasiya geli və kollagen membranlar kimi biomateriallardan istifadə edilməklə, parodontit və peri-implantit nəticəsində itirilmiş sümük yenidən bərpa olunur. Master-klassda bioloji modellər üzərində tikiş texnikaları, parodontoloji regenerativ cərrahiyyə üsullarının və biomaterialların tətbiqi üzrə təlim keçiriləcəkdir.



| | |
|---|---|
| 10:00 - 11:30 | **Nəzəri hissə** |
| 11:30 - 12:00 | **Çay Fasiləsi** |
| 12:00 - 13:00 | **Nəzəri hissə** |
| 13:00 - 14:00 | **Nahar Fasiləsi** |
| 14:00 - 16:00 | **Praktik mərhələ** |
| 16:00 - 16:30 | **Çay Fasiləsi** |
| 16:30 - 18:00 | **Praktik mərhələ** |



## ASLAN MƏMMƏDOV

**Parodontoloq, PhD**

**MASTER KLASS**

# KEÇİRİLƏCƏK YER














ibis

## Ibis Baku City Hotel

Bakı şəhəri, Xocalı prospekti 64

# ŞƏRTLƏR VƏ QAYDALAR



- Parodontologiya Kurikulumu Azərbaycan Parodontologiya Cəmiyyəti tərəfindən təşkil olunan, parodont və peri-implant xəstəliklərinin diaqnostikası, qeyri-cərrahi və cərrahi müalicəsi üzrə 2 seminar və 5 master-klassdan ibarət 1 illik davamlı peşəkar inkişaf proqramıdır.

- Parodontologiya Kurikulumu **Azərbaycan Respublikası Səhiyyə Nazirliyi və Avropa Parodontologiya Federasiyası** tərəfindən Davamlı Peşəkar İnkişaf (DPİ) üzrə akkreditasiya olunmuşdur. İştirakçılar hər bir seminar və master-klass üzrə **8 DPİ kreditləri** əldə edəcəklər. Kurikulumun bütün tədbirlərində iştirak edən həkimlər ümumilikdə **56 DPİ kreditinə** malik olacaqlar.

- Kurikulum proqramında iştirakçı sayı **15 həkim** ilə məhdudlaşdırılır. Qeydiyyatlar mövcud yerlər dolana qədər xronoloji ardıcıllıqla qəbul ediləcək.

- Qeydiyyat zamanı iştirakçı tərəfindən ali təhsil haqqında diplomun və şəxsiyyət vəsiqəsinin surəti (əcnəbilər üçün pasportun surəti) təqdim olunmalıdır.

- Kurikulum üzrə bütün tədbirlər Ibis Baku City Hotel, Bakı şəhəri, Xocalı prospekti 64 ünvanında keçiriləcək.

- Parodontologiya Kurikulumunda iştirak haqqı Azərbaycan Parodontologiya Cəmiyyətinin üzvləri üçün **4000 AZN**, qeyri-üzvlər üçün isə **4500 AZN** təşkil edir. Rezidentura təhsili alan və Azərbaycan Parodontologiya Cəmiyyətinin üzvü olan həkimlər üçün iştirak haqqı **3500 AZN** olaraq müəyyən edilmişdir. Qeydiyyat haqqı tam şəkildə və ya 5 hissə üzrə ödənilə bilər.

- Azərbaycan Parodontologiya Cəmiyyətində & Avropa Parodontologiya Federasiyasında illik üzvlük + Journal of Clinical Periodontology jurnalında onlayn abunəlik haqqı **150 AZN** təşkil edir. https://www.perio.az/uzvluk

- İştirakçılar tərəfindən qeydiyyatdan sonra və ya Kurikulum müddətində hər hansı səbəblə qeydiyyatın ləğvi tələb olunarsa, iştirak haqqı geri qaytarılmayacaq.

- Tədbir tarixləri və keçiriləcək yer təşkilatçılardan asılı olmayan səbəblərə görə dəyişdirilə və ya təxirə salına bilər. Bu halda, Təşkilat Komitəsi tərəfindən iştirakçılara dərhal məlumat veriləcək.

## QEYDİYYAT VƏ MƏLUMAT

+99455 425 63 52 (zəng / whatsapp)
info@perio.az
**www.perio.az**



PERIOAZ
AZƏRBAYCAN
PARODONTOLOGİYA CƏMİYYƏTİ